UOT 930:314

AYDIN MƏMMƏDOV
Bakı Dövlət Universitetinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru
aydin.mmmdov.67@ mail.ru

B.URLANİSİN TƏDQİQAT ƏSƏRLƏRİNDƏ TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/105/218-227

Boris Sezaroviç Urlanis (1906-1981) tarixi demoqrafiya, iqtisadi demoqrafiya, əhali artımı, dinamikası və strukturu problemləri sahəsində uzun illər elmi tədqiqat aparmış görkəmli rusiyalı demoqraf-alimdir. 1923-1926-cı illərdə Moskva Dövlət Universitetinin İctimai Elmlər Fakültəsində təhsil almış B.Urlanis 1940-cı ildə iqtisad elmləri üzrə doktorluq dissertasiyası müdafiə etmiş, 1944-cü ildən Moskva Dövlət Universitetinin professoru kimi statistika fənnindən dərs demişdir. 1959-cu ildən SSRİ Elmlər Akademiyasında çalışan B.Urlanis 60-70-ci illərdə Sovet İttifaqında demoqrafik bilgiləri özündə ehtiva edən çoxsaylı elmi məqalələri ilə tanınmış və ona qədər əhali artımı ilə bağlı heç kəsin cəsarət etmədiyi problemləri gündəmə gətirmişdir. Belə ki, B.Urlanis əhali artımının tənzimlənməsində yeni qurulan ailələrdə dünyaya gələn uşaqların sayının azalması, boşanmaların sayının isə əksinə çoxalması, qadınların və aztəminatlı ailələrin sosial təminatı kimi məsələlərə həssaslıqla yanaşaraq, bu sahədə guya heç bir çatışmazlığın olmadığını iddia edən sovet ideologiyasının doqmalarından qurtulmağı bacarmış, həmin problemlərin aradan qaldırılması üçün ən optimal çıxış yollarını göstərməkdən çəkinməmişdir: "...Təəssüf ki, qadınlarımızın heç də hamısı ailə həyatı sevincini yaşaya bilmirlər. Boşanma nisbətimiz yüksəkdir: 1976-cı ildə 2 milyon 218 min qadın ilk dəfə ailə qursa da, həmin ildə 861 min qadın boşanıb. Eyni zamanda nəzərə almalıyıq ki, boşandıqdan sonra heç də hər kəs ikinci dəfə yeni ailə həyatı qurmağa cəhd edə bilməmişdir". Yaxud, "Kişilər qoruyun!" (Берегите мужчин!) məqaləsində o, vətəndaşı olduğu ölkədə kişilər arasında ölüm nisbətinin qadınlarla müqayisədə nəzərəçarpacaq dərəcədə yüksək olduğunu göstərmiş və bununla bağlı maraqlı təhlillər aparmışdır. Bu baxımdan B.Urlanis SSRİ-də tarixi demoqrafiyanın banilərindən biri sayılır.

Məqalədə B.Urlanisin elmi yaradıcılığında tarixi demoqrafiya məsələləri araşdırılır, demoqraf-alimin çoxsaylı tədqiqat əsərlərinin müqayisəli təhlili əsasında əhali artımı, ailə, nikah və s. kimi demoqrafik proseslər araşdırılır.

Açar sözlər: Boris Urlanis, tarixi demoqrafiya, əhali artımı, ailə, Rusiya tarixşünaslığı.

Giriş. B.Urlanisin yaradıcılıq fəaliyyəti XX əsrin otuzuncu illərindən səksəninci illərinə qədər olan çətin və özünəməxsus xüsusiyyətləri ilə səciyyələnən bir dövrdə baş vermişdir. B.Urlanis Rusiyada XX əsrin altmışıncı illərindən başlayaraq demoqrafiyanın bir elm kimi dirçəlişində son dərəcə mühüm rol oynayan dünya miqyaslı alimlərdən biri olmuşdur. O, ilk dəfə demoqrafiyanın bir elm kimi predmetini, onun metod və məqsədlərini aydın şəkildə müəyyən etmişdir. Onun demoqrafiyanın bir sıra ictimai elmlərlə, ilk növbədə, tarix və iqtisadiyyat elmləri ilə əlaqəsini araşdıran çoxsaylı, sanballı, dərin elmi məzmunlu əsərləri yazaraq ərsəyə gətirməsi, o cümlədən əhali artımı və məskunlaşması ilə bağlı demoqrafik problemləri təkcə tarixi deyil, eləcə də sosial-iqtisadi kontekstdə araşdırması, bu sahələrin inkişafı, onun dərindən öyrənilməsi üçün yeni metodlar işləyib hazırlaması iqtisadi və tarixi demoqrafiyanın inkişafına son dərəcə münbit zəmin yaratmışdır.

1938-ci ildə Boris Urlanisin "Amerika senz tarixinə dair" fundamental əsəri, daha sonra 1941-ci ildə "Avropada əhalinin artımı, (hesablama təcrübəsi) adlı monoqrafiyası nəşr olunmuşdur. Əgər adı çəkilən birinci monoqrafiya B.Urlanisə demoqraf kimi şöhrət gətirdisə, ikincisi isə artıq onu dünya miqyasında bu sahənin ən görkəmli alimi kimi tanıtdı. Keçmiş Sovetlər ölkəsində XX əsrin əllinci illəri ciddi senzura ilə səciyyələndiyinə görə ölkədə, xüsusilə əmək qabiliyyətli yaşda olan kişilər arasında yüksək xəstələnmə və ölüm halları, doğum səviyyəsinin azalması, alkoqolizm problemi,

çoxlu abortlar, tək valideynli, natamam ailələrdə uşaqların əlverişsiz, çətin şəraitdə böyüməsi ilə bağlı suallar doğuran demoqrafik əsərlərin nəşri demək olar ki, mümkünsüz idi. Qeyd edək ki, Urlanisi artıq 1949-cu ildə Moskva Dövlət Universitetindən (O, sözügedən universitetin İqtisadiyyat fakültəsində mühasibat uçotu və statistikada kafedrasında dərs deyirdi.) guya burjua statistika uçotunu təriflədiyinə, sovet statistika elmini aşağıladığına, və mənsub olduğu ölkənin siyasi maraqlarını qoruya bilməməkdə ittiham edərək kənarlaşdırmışdılar. Lakin bütün bunlara baxmayaraq, B.Urlanis onun üçün son dərəcə çətin günlərdə statistikaya dair cəmi iki dərslik və bir neçə elmi jurnal məqaləsi çap etdirə bilmişdi [3, s.185-193].

Ailə modelini, dəyərlərini, adət-ənənələrini tarixi demoqrafiya konteksində tədqiq edən B.Urlanisə görə ailə təkcə sosiallaşmanın ilk mərhələsi deyil, həm də onun ən mühüm və qədim institutlarından biridir. Alimin təbirincə tarixən sosial qrup olan ailənin əsasını qohumluq əlaqələri və ya nikah münasibətləri təşkil etmiş, ta ibtidai cəmiyyətdən üzü bəri ailədəki insanlar birlikdə yaşamış, ümumi təsərrüfatda çalışmış, ailə qarşısındakı məsuliyyətlərini dərk edərək bir-birlərinə ailə dəyərlərindən irəli gələn yaxınlıq və doğmalıq, o cümlədən mənəvi-emosional tellərlə bağlanmışlar. Bu sosial institut elə müasir dövrdə də tarixən nəsildən-nəslə ötürülən tərbiyə və şəxsi mədəniyyət prinsiplərinin mühüm daşıyıcısıdır. Müasir dövrdə də hər bir ailə ilk növbədə ailə dəyərlərini ehtiva edən ənənələrə, tarixilik prinsiplərinə sadiq qalmalı, onu hər vəchlə qorumağı özünün ən ümdə vəzifəsi hesab etməlidir. Əks təqdirdə nəsillər arasında əlaqə qırılar, ailə sosial institut olaraq əsas funksiyalarını icra edə bilməz.

Məhz bu səbəbdən də B.Urlanisin bir sıra tədqiqat əsərlərində nikah və ailə demoqrafik siyasətin obyekti, nikah və ailənin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən sosial-iqtisadi tədbirlər isə demoqrafik siyasətin tərkib hissəsi kimi tədqiq edilmiş, o cümlədən müasir rus ailə dəyərlərinin sistemli şəkildə təhlili aparılmışdır. Onun tarixi demoqrafiya səhəsində qələmə aldığı demək olar ki, bütün əsərlərində ailə və nikah sahəsində dəyər oriyentasiyalarının aparıcı meylləri bəşər tarixinin ayrı-ayrı dövrləri üzrə diqqətlə öyrənilmiş və ümumiləşdirilmişdir.

Belə bir hal müəllifin öz diqqətini, fikrimcə demoqrafik ədəbiyyatda hələ kifayət qədər işıqlandırılmamış digər problemlərə də yönəltməsini izah edir. Bunlardan biri də B. Urlanisin bir sıra tədqiqat əsərlərində gənclərin ailə qurmağa hazırlanması və nikah yaşının vacibliyi ilə bağlı problemləri gündəmə gətiməsidir. Müəllif özünün elmi əsərlərinin toplusundan ibarət "Əhali məskunlaşması: Araşdırılması. Publisistika" adlı girişdən, üç fəsildən ibarət kitabında əhali artımının inkişaf dinamikasını tarixi-iqtisadi aspektdə araşdırmağa cəhd göstərmişdir. Sözügedən kitabın "Demoqrafiyanın ümumi problemləri" adlı birinci fəslində müəllif demoqrafiyanın sosiologiya elmi ilə əlaqələrindən, əhali problemlərinin strateji konsepsiyalarından bəhs edirsə, "Konkret demoqrafik tədqiqatlar" adlanan ikinci fəslində isə tarixi demoqrafiya müstəvisində ibtidai cəmiyyətdən çağdaş dövrədək əhali məskunlaşması, təbii artımı təmin edən obyektiv səbəb və amilləri araşdırır. O, kitabın bu fəslində bəşəriyyətin ilkin çağlarına ekskurs edərək yazır: "İnsanın yer üzündə mövcud olduğu dövr əvvəllər təxminən 400-500 min il bundan əvvəl müəyyən edilirdi. Düşünmək olar ki, dördayaqlı qardaşlarından ayrılan ilk insanların qəbilələri həddindən artıq yavaş bir tərzdə çoxalmışlar" [23, s.132-134].

B.Urlanis əhalinin təbii artımının yavaş inkişaf tempini sözügedən dövrün təbii şəraitinin doğurduğu obyektiv amillərlə əlaqələndirir:"Əlverişsiz həyat şəraiti, təbiətlə mübarizənin çətinliyi, heyvanlar aləmi və müxtəlif əlverişsiz təbiət hadisələri ilə mübarizə aparmaq üçün hələ də çox zəif təchiz olunması, bütün bunlar ibtidai insanın ömrünün son dərəcə az olmasına səbəb olurdu." O, sərt təbiətin doğurduğu əlverişsiz və çətin həyat şəraitində ilk insanların çoxsaylı obyektiv səbələrdən arta bilməsi imkanlarını minimal hesab edirdi:" Bir çox tayfalar, məsələn, geoloji fəlakətlər nəticəsində tamamilə yox olurdu, İbtidai dövrdə əhalinin inkişaf dinamikasının necə, hansı xüsusiyyətlərə malik olduğunu təsəvvür etmək belə çətindir" [23, s.132-134].

B.Urlanis "Ömrün uzunluğu tarixi aspektdə." adlı elmi tədqiqat işində relikt tayfaları öyrənən alimlərin əsərlərini tarixşünaslıq aspektində araşdıraraq ibtidai cəmiyyətdə uşaqların öz valideynləri tərəfindən öldürülməsi faktını uşaq ölümünün sayını-koefisentini artıran amil kimi qabardır. Məsələn, müəllif D.Roxlinə istinadən yazırdı: "Eyni zamanda, nəzərə almaq lazımdır ki, bəzi insanların əcdadları, şübhəsiz ki, ölülərə uzun müddət vəhşi münasibət bəsləmiş, (D.Roxlinin fikrincə alimlər tərəfindən tapılan qədim insan sümükləri, yaxud onların bir parçası çoxları tərəfindən tez-tez qəbul

edildiyi kimi yalnız ölüm simvolu deyil. Bir zamanlar mövcud olan həyatın sübutunu təmin edən hər hansısa bir sümük parçası, insan orqanizminin bir hissəsi olaraq onun artıb-törəməsi, həyatı, ölümü haqqında çox şeylər danışa bilər. A. B.) cəsədləri atmış və ya yemişdirlər" [10, s.10].

B.Urlanisin yuxarıda qeyd olunduğu kimi ibtidai cəmiyyətdə əhali məskunlaşması, təbii artım və digər demoqrafik prosesləri elmi-obyektiv müstıvidə araşdırmaq üçün, relikt tayfaların həyat tərzinin əsaslı şəkildə öyrənilməsinə də son dərəcə ciddi yanaşmışdır. Yuxarıda ibtidai cəmiyyətdə uşaq ölümünün sayını-koefisentini artıran amillərlə bağlı fikrini əsaslandırmaq üçün o, Avstraliyada yaşayan relikt qəbilələrin həyat tərzinə istinadən yazırdı: "Bu tayfalar arasında uşaqöldürmə ənənəsi geniş yayılmışdı. Məsələn,XIX əsrin ortalarında alman səyyahı Oberlanderə 10 uşağını öldürən qadın göstərilmişdir" [26, s.13]. Bəs belə idisə nəsil artımının sabit inkişafı necə baş vermişdi? O, sözügedən problemi tədqiq edən alimlərin əsərlərini ciddi surətdə araşdıraraq: "İbtidai xalqların nəsilartırma qabiliyyətləri böyük idi. Bu fikri ən azından müasir dövrdə yaşayan, lakin öz inkişafında geri qalan (relikt – A.M.) xalqların nəsilartırma qabiliyyətlərinə görə irəli sürə bilərik" – deyə yazırdı [26, s.12-13]. B.Urlanis həmçinin belə qənaətə gəlir ki, sözügedən dövrün qadınları artıq ortalama 15 yaşında ana ola bilirdilər [26, s.13]. B.Urlanisin əhalinin təbii artımı problemlərini tarixi demoqrafik aspektdə tədqiq etməsi məsələlərinə onun digər əsərlərində, xüsusən 2007-ci ildə nəşr olunmuş "Tarixi demoqrafiya" adlı seçilmiş əsərləri toplusunda da rast gəlirik [17].

Əhalinin təbii artımını istehsal vasitələrinin inkişafı ilə əlaqələndirən B.Urlanis belə bir qənaətə gəlirərək: "Ən uzaq tarixi dövrlərdə Yer kürəsinin əhalisinin bir neçə yüz milyon nəfərə çatdığını güman etmək tamamilə ağlasığmazdır. Əhali sıxlığı yüksək texnologiya və mədəniyyət tələb edtiyindən və tarixdən əvvəlki dövrlərdə bunların heç birisinin mövcud olmaması səbəbindən mövcud ola bilməzdi"- deyə, yazmışdır [23, s.132-134]. Qeyd etmək lazımdır ki, istehsal vasitələrinin daima inkişafda olduğunu, deməli əhalinin təbii artımının da bir nöqtədə dayanmadığını obyektiv proses kimi qəbul edən B.Urlanis: "Bu o demək idi ki, müəyyən tənəzzül dövrlərinə baxmayaraq, insanların istehsal fəaliyyəti yenə də öz işini görür, irəliyə doğru hərəkət davam edirdi, lakin bu hərəkətin sürəti tamamilə cüzi idi" – deyə, söyləyərək, fikrini bu şəkildə davam etdirir: "İnsanların nəsilartırma qabiliyyəti mikroskopik idi, lakin bəşər tarixindəki iqtisadi tərəqqinin ümumi tempinə tam uyğun idi" [23, s.134]. Məhz bu paradiqmadan çıxış edən B.Urlanisə görə quldarlıq cəmiyyətində, ibtidai cəmiyyətlə müqayisədə, feodalizm dövründə isə quldarlıqla müqayisədə, əhalinin artım prosesində irəliyə doğru inkişaf obyektiv surətdə baş verməliydi: "Sonra əhalinin təbii artım tempı sürətləndi. Belə ki, quldarlıq sistemi əhalinin və ümumilikdə məhsuldar qüvvələrin inkişafı baxımından özündən əvvəlki formasiyalara nisbətən xeyli yüksək artım templəri ilə xarakterizə olunur. Feodalizm quruluşu isə öz növbəsində əhali artımının inkişaf tempini quldarlıq quruluşu ilə müqayisədə yenidən sürətləndirdi, lakin bizim eramızın inkişaf tempi ilə müqayisədə feodal dövrünün inkişaf tempi son dərəcə yavaş görünür". Təbii ki, bu proses kapitalizmdə pik həddə çatmalıydı: "Feodalizmi yeni ictimai sistem - ictimai əməyin məhsuldarlığına böyük təkan verən kapitalizm əvəz etdi. İstehsal prosesində sənətkarların əl əməyini tədricən əvəz edən bir sıra maşınların meydana gəlməsi dövrün iqtisadi mənzərəsini əsaslı surətdə dəyişdi, istehsalın mexanikləşdirilməsi istehsal həcmini xeyli artırdı. Bunun nəticəsində istehsalın həcmi, istehsal vasitələrinin rolu və əmək məhsuldarlığının səviyyəsi əvvəlki dövrlərlə müqayisədə əhəmiyyətli dərəcədə artdı [23, s.135].

Müəllif yuxarıda söylənən fikirlərini əsaslandırmaq üçün, tarixi tədqiqatlarda tətbiq edilən riyazi metodlara istinad edərək, bəşər tarixinin ayrı-ayrı dövrlərinin mövcud olduğu zamanların kəmiyyət müqayisəsini də aparır: "Bəşər tarixinin soial-iqtisadi inkişaf və istehsal tempinin artan xətlə sürətlənməsini indiyədək mövcud olan ictimai formasiyaların müddəti də sübut edir. Onların bəşər tarixində mövcud olma müddətləri təxminən aşağıdakı kimidir. Belə ki, əgər ibtidai cəmiyyət 3 milyon ildən bir neçə min ilə qədər mövcud olubsa, quldarlıq cəmiyyəti bir neçə min il ərzində mövcud olmuşdur. Əgər ilkin kapital yığımı əsri 250-300 il mövcud olmuşdursa, öz növbəsində Sənaye Kapitalizmi Əsri isə cəmi 100-125 il mövcud olmuşdur. Rəqəmlər aydın surətdə göstərir ki, ibtidai xalqların həyatında əhali artımı prosesində hər hansı əhəmiyyətli dəyişiklik üçün on minlərlə il tələb olunurdu. Quldarlıq dövründə bu dəyişikliklər bir neçə min, feodalizm dövründə yalnız əsrlər, nəhayət, kapitalizm dövründə əhali artımı prosesində əhəmiyyətli dəyişikliklərin baş verməsi cəmi bir neçə onilliklər tələb edirdi" [23, s.135]. Qeyd etmək yerinə düşərdi ki, əhali artımı və məskunlaşması

prosesinə sənayesinin yüsək inkişafının təsirinə tarixi demoqrafiyaya dair digər ədəbiyyatlarda da rast gəlinir: "Avropa ölkələri içərisində əhalisinin inkişaf tempinə görə ən öndə gedən ölkə İngiltərə idi. Belə ki, məhz bu ölkənin əhalisi XIX əsrdə 3,6 dəfə artmışdı. Bu inkişafın əsas səbəbi isə İngiltərə sənayesinin yüsək inkişafı idi" [1, s.172].

Həqiqətən də sənayesinin inkişaf tempi yüsəksəldikcə, əhalinin inkişaf tempinin də misilsiz bir sürətlə arması-milyarda çatması tarixi reallıqdır: "XIX əsrin 30-cu illərindən başlayaraq bir sıra Avropa ölkələrində, o cümlədən İngiltərədə müşahidə olunan sənaye çevrilişi əhali məskunlaşması prosesinin intensiv inkişafında heç də az rol oynamamışdır. Belə ki, yer üzünü alt paleolit dövründən bəri məskunlaşdıran insan nəsli ilk dəfə bir milyarda yalnız 1830-cu ildə çatmışdır. Artıq 100 il sonra 1930-cu ildə bəşəriyyət növbəti – ikinci milyarda imza atdı. 1962-ci ildə yer kürəsində əhalinin sayının üç milyarda çatması üçün 32 il vaxt tələb olundu" [1, s.21].

Qeyd etmək lazımdır ki, B.Urlanis əhalinin inkişaf tempinin dinamikasını tarixi-mədəni, sosial-iqtisadi, siyasi amillərlə yanaşı, təbii-coğrafi amillərlə də əlaqələndirir. Müəllif "Qərar vermək vaxtıdır" adlı elmi məqaləsində demoqrafik problemlərin həllini bəşəriyyətin ən vacib məsələlərindən biri kimi qabardaraq yazır: "Demoqrafik problemlərin həllinin vacibliyi nüvə təhlükəsinin aradan qaldırılması, sürətlə silahlanmaya, soyuq müharibəyə son qoyulması, bəşər sivilizasiyasının gələcəyinin asılı olduğu ətraf mühitin qorunması və xilası problemləri qədər ciddidir" [14, s.263]. Onun fikrincə, Yer üzündə insanların yaşayış şəraiti, tarixən sosial-iqtisadi və fiziki-coğrafi cəhətdən kəskin şəkildə fərqlənir və bu, dünya ölkələrinin qarşısında duran vəzifələrin fərqliliyini müəyyən edir: "Əhalinin inkişaf tempinin dinamikası məsələsinə coğrafi determinizm metoduna üz tutaraq yanaşan müəllifin fikrincə demoqrafik siyasətin hansı istiqamətdə hazırlanaraq tətbiqində fiziki-coğrafi amillər heç də az rol oynamır. Məhz bu səbəbdən də yer üzünü məskunlaşdıran əhalinin artımı problemlərinin həlli üçün tam əks qütblü iki əsas istiqamət, nəzərdə tutulur: doğum nisbətinin artırılması zərurəti – analitik mövqe və doğum nisbətinin azaldılması zərurəti, anti-natalist mövqe" [23, s.263-269]. Digər tərəfdən, müəllif sənayenin inkişaf tempinin əhalinin inkişaf tempi ilə heç də həmişə üst-üstə düşməməsi fikrini söyləyərək: "Bir çox ölkələrdə yüksək doğum səviyyəsi onların iqtisadi inkişafında ciddi maneəyə çevrilib. Bəzi ölkələrdə istehsalın artım tempi hətta əhalinin artım tempinin inkişaf tempinə çata bilmir" – deyə, yazır. O, ölkələrin iqtisadiyyatında belə bir halın yaranmasını palçığa batmış maşına bənzədir: təkərlər fırlanır, lakin maşın yerində qalır və bəzən geriyə doğru hərəkət edir [14, s.264].

B.Urlanisin fikrincə, inkar etmək olmaz ki, bəzi ölkələrdə əhalinin sayının əhəmiyyətli artım tempi iqtisadi problemlərin həllini çətinləşdirir və onların inkişafını ləngidir. Lakin, iqtisadiyyatın geri qalmasının yeganə səbəbi təkcə doğum səviyyəsinin yüksək olması deyil. Çünki, bu tipli ölkələrdə – inkişaf etməkdə olan, o cümlədən geri qalmış ölkələrdə doğum səviyyəsi həm də insanların yaşadığı sosial-iqtisadi şəraitin aşağı səviyyədə olmasının, yüz milyonlarla insanın savadsızlığının, iqtisadi tənəzzülünün, mədəni geriliyinin, ictimai istehsalda qadın əməyindən zəif istifadə edilməsinin nəticəsidir. B.Urlanis həm sözügedən, həm də "Qadınları da qorumaq lazımdır" adlı elmi məqaləsində əhalinin inkişaf tempinin dinamikasında qadınların cəmiyyətə intaqrasiya olunması məsələsinə böyük önəm verir: "Nadir hallarda analar həyatının ilk aylarında özlərinin kiçik, yeganə uşağını başqasının himayəsinə verməyə razı olur. Heç bir muzdlu dayə körpənin həyatının ilkin dövründə ana qayğısını və sevgisini əvəz edə bilməz" [16, s.236]. Müəllif yazır: "Təkövladlı analar uşaqsız qalma riskini nəzərə alsaydılar, yəqin ki, bir uşaqla məhdudlaşmazdılar. Analıqdan imtina etməklə qadınlar bununla da özlərini valideynlik sevincindən məhrum edərək özlərini tənhalığa məhkum edirlər" [16, s.238-239]. Ona görə də, alim belə hesab edir ki, anaların övladlarını böyütməsi, habelə ikinci və üçüncü uşağı dünyaya gətirməsi üçün hər cür şərait yaradılmalıdır. Əks halda, analar abort yolunu seçəcək: "Lakin, abort hüququ ananın dünyaya gətirəcəyi körpədən qorunması kimi başa düşülə bilməz. Bu hüquq ölkəmizin bütün uşaqlarının hələ doğulmazdan əvvəl arzu olunan övladlar kimi dünyaya gələcəkləri anlamında başa düşülməlidir" [16, s.236-237]. Eyni fikrə müəllif "Arzu olunan övlad", "Ailədə nənə", "Mütəxəssislərin öhdəsinə", "Və yenə də: kişiləri qoruyun", "Atasızlıq", "Neçə övlada sahib olmalı", "Ata, ana, üç övlad", "Birtərəfli hesab" adlı elmi əsərlərində də toxunur [16, s.217-221, 222-224, 225-231; 20; 24; 27]. Müəllif adları çəkilən elmi əsərlərində ailənin qorunması üçün zəruri olan bütün vacib elementlərə, eləcə də ailədə lazım olan uşaqların sayı məsələsinə toxu-

nur. Məsələn, "Arzu olunan övlad" adlı məqaləsində müəllif belə qənaətə gəlir: "Əgər cütlük yalnız bir uşaq dünyaya gətirərsə, o zaman demək olar ki, bir nəsildə əhalinin sayı nəzərəçarpacaq dərəcədə azalacaq. Cəmiyyət üçün ailədə tək uşağın olması son dərəcə pis və arzuolunmaz haldır" [15, s.249-250]. Müəllif nəticə olaraq: "Əgər əhali artımının lazımi qədər olmasını istəyiriksə, onda hər 100 cütlük 300 övlada sahib olmalıdır" [15, s.250]. O, ailədə bir və ya iki uşağı "demoqrafik aclıq" adlandırır və belə hesab edir ki, yalnız üç uşaqla ailə normal kəmiyyət əldə edir. Müəllifin fikrincə, təkövladlı ailələrin artmasına səbəb olan amillərdən biri də boşanmalardır. Belə atasız ailələrdə uşaqlar psixoloji travma ilə böyüyür. Atasızlıq uşaqları qayğı və müdafiədən məhrum edərək nəinki onların gündəlik həyatını pisləşdirir, eləcə də gələcəklərinə mənfi təsir göstərir [11, s.200-205].

B.Urlanisin müharibələrin demoqrafik proseslərə mənfi təsirləri ilə bağlı narahatlığı və uzaqgörənliyi insan təxəyyülünü heyrətə gətirir. Müasir dünyamızda demək olar ki, dünyanın hər yerində yeni müharibə ocaqları qızışır. Belə ki, biz hər gün müharibələr səbəbindən minlərlə dinc mülki şəxsin və hərbi qulluqçunun həlak olması ilə bağlı xəbərlər eşidirik. Müəllif yazır: "Bəşər tarixinin bütün dövrlərində müharibələrin demoqrafik proseslərə təsiri çox böyük olmuşdur. Barbarlar dövründə tayfalar arasında gedən müharibələr əhali artımını xeyli azaltmışdır. Aramsız feodal müharibələri də insan qurbanlarının xeyli sayda artmasına səbəb olmuşdur. Üstəlik, kapitalizm dövründəki müharibələr də zaman-zaman milyonlarla insanın vaxtından əvvəl ölümünə səbəb olmuşdur. Müharibələr təkcə orduda xidmət edənlər üçün deyil, həm də mülki əhali arasında da ölüm hallarının artması və doğum səviyyəsinin azalmasına səbəb olur" [22, s.331; 13, s.35-43, 75-132, 304-330, 453-562].

B.Urlanis bəzən konkret dövrdə yaşamış bir nəslin keçdiyi həyat təcrübəsini, həmin nəslin demoqrafik proseslərdə hansı dərəcədə, necə iştirak etməsi məsələlərini sırf həmin dövrə xas tarixi xüsusiyyətlər baxımından tədqiq etmişdir. Məsələn, müəllif "Bir nəslin tarixi" kitabında 1906-1966-cı illərdə yaşamış bir nəslin nümunəsi əsasında insan ömrünün yaşını, keçirdiyi tələtümləri, o cümlədən XX əsrin birinci yarısında Rusiyanın siyasi-iqtisadi səviyyəsinin demoqrafik vəziyyətə təsirini, şəhər və kəndlərinin sosial-mədəni şəraitini hərtərəfli təsvir edərək, tarixi demoqrafik nöqteyi-nəzərdən araşdırmışdır [18, s.43-47]. Müəllif sözügedən kitabında yazır ki, Çin və Hindistandan sonra üçüncü ən çox əhalisi olan Rusiyanın şəhərlərində elektrik işıqlandırma sistemi yox idi [18, s.53]. Müəllif qeyd edir ki, Rusiyada fəhlə və kəndlilərin maddi vəziyyətlərinin aşağı olması onlara öz ailələrini lazımi səviyyədə dolandırmağa, ailə üzvlərinin sayını artırmağa imkan vermirdi. Məsələn, Sankt-Peterburq tekstil işçisinin ailəsində 1908-ci ildə adambaşına gündə 700 qram qara çörək, 300 qram kartof, 140 qram kələm və 17 qram kərə yağı, Bakıda isə 1910-cu ildə neftçilərin ailələrində adambaşına gündə cəmi 1 qram kərə yağı düşürdü [18, s.51]. B.Urlanis XIX əsrin sonlarında Rusiyada dözülməz əmək şəraitinin də demoqrafik vəziyyətə son dərəcə mənfi təsirini konkret rəqəmlərlə qabardır. Baxmayaraq ki, əmək qabiliyyətli əhali (B.Urlanisin fikrincə, əmək qabiliyyətinin başlanğıcı 16 yaşdan hesab olunurdu. – A.M.) ümumi əhalinin təxminən 40%-ni təşkil edirdi, XIX əsrin sonlarında Rusiyada əmək qabiliyyətli yaşda olan hər 100 nəfərə 87 nəfər əmək qabiliyyəti yaşında olmayan şəxs düşürdü. Ona görə də sözügedən dövrdə ölkədə 12, 13, 14 və 15 yaşlı milyonlarla uşaq işləyirdi. Rus kəndlisi hətta 60 yaşına çatdıqdan sonra kifayət qədər gücü, taqəti olduğu müddətdə belə, işləməyə davam etmək məcburiyyətində idi [18, s.54]. Təbii ki, uşaqların kiçik yaşlardan ağır əməyə cəlb olunması, dözülməz və antisanitar şəraitdə yaşaması, onların fertil qabiliyyətlərinin də zəifləməsinə, gələcək ailə həyatlarında dünyaya qeyri-sağlam, ölü uşaqlar gətirmələrinə münbit şərait yaradırdı: "O dövrün işləyən qadınlarının ağır həyat şəraiti, anaların müdafiəsinin və onlara qayğının olmaması çoxlu sayda uşağın vaxtından əvvəl doğulmasına, yaxud ya ananın, ya da övladın məhvinə səbəb olurdu". Müəllif yazır ki, sözügedən dövrdə uşaqların demək olar ki, böyük əksəriyyəti qeyri-stasionar şəraitdə doğulduğundan, doğum evlərində ana ölümünün faizinə əsasən, hər 6,8 milyon doğuşa 34000 ananın doğuş zamanı öləcəyini güman etmək olar [18, s.98-99]. Rəsmi statistikaya görə, 1906-cı ildə ölkədə 4427 çarpayılıq cəmi 525 doğum evi və ya doğum şöbəsi var idi. Qafqazın və Orta Asiyanın əksər əyalətlərində isə ümumiyyətlə, bir doğum evi və ya şöbəsi belə yox idi [18, s.98]. Elə yuxarıda deyilənlərin nəticəsi olaraq 1906-cı ildə ölkədə 8391 oğlan və 5779 nəfəri qız olmaqla 14170 ölü uşaq doğulmuşdu [18, s.78]. Sözügedən əsərində 1906-cı ildə doğulan insanların həyat fəaliyyətini demoqrafik aspektdə 1966-cı ilədək, yəni tam bir əsr müddətində izləyən alimin gəldiyi qənaətə görə demoqrafik inkişafın mühüm göstəricilərindən biri də dağıdıcı müharibələrin,

müxtəlif xəstəliklərin (müəllif burada milyonlarla insan ömrünü yarıda qoyan I və II Dünya müharibələrinin, epidemiyaların, aclıq və soyuğun acı nəticələrini çoxsaylı statistik göstəricilər, riyazi hesablamalar yolu ilə araşdırmışdır. – A.M.) azaltdığı insan ömrünün uzunluğudur.

Kişilərin ata, qadınların isə ana olmaq qabiliyyətinin müəyyən edilməsi ilk növbədə, onların sağlamlıq göstəriciləriylə daha doğrusu onların reproduktiv həddə çatmasına zəmin yaradan bəlli zaman kəsiyindən – insan ömrünün uzunluğundan çox asılıdır. Reproduktiv sağlamlıq haqqında danışırıqsa, kişilərdə də sonsuzluqla bağlı hallara qadınlarda olduğu kimi tez-tez təsadüf olunur. Təsadüfi deyildir ki, Rusiya Tibb Elmləri Akademiyası mütəxəssislərinin hesablamalarına görə, ölkədə son 15 ildə təxminən 4 milyon uşağın doğulmamasının səbəbi məhz kişi sonsuzluğudur. Təəssüf ki, bu hal artmaqda davam edir. Son 13 il ərzində bu xəstəlikdən – kişi sonsuzluğundan əziyyət çəkən kişilərin sayı 80% artıb. Bütün bunlar isə B.Urlanisin hələ yarım əsr bundan əvvəl çox böyük uzaqgörənliklə söylədiyi kimi analaın mühafizəsi ilə yanaşı, ataların da mühafizəsinin ölkənin sağlam demoqrafik mənzərəsinin və genofondunun yaradılması üçün nə qədər vacib olduğunu bir daha təsdiq edir. Məsələn, çağdaş dövrdə sözügedən problemi tədqiq edən Ç.İldarxanova "Rus kişilərinin sosial-demoqrafik problemliəri generativ davranışları konteksində" adlı məqaləsində yazır ki, bu gün də cəmiyyətimizdə kişilərdə cinsi disfunksiya və reproduktiv sağlamlıqla bağlı problemləri müzakirə etmək adət deyil, bu kimi məsələlər necə deyərlər hələ də "qapalı mövzu" hesab olunur. Məsələn, bu gün də Rusiyada kişilər sonsuzluqla bağlı həkimə qadınlardan 5 dəfə az müraciət edirlər [8, s.74].

B.Urlanis yuxarıda xatırlatdığımız "Əhali məskunlaşması: Araşdırılması. Publisistika" adlı kitabında əhali artımının tənzimlənməsi prosesində doğum həddinin yüksəldilməsinə təsir edən amillər içərisində nikah yaşının da vacibliyindən, müstəsna rolundan bəhs etmişdir: "Doğum səviyyəsinə müəyyən qədər təsir göstərən digər səbəb nikah yaşıdır. Uşaq dünyaya gətirmə dövrünün müddəti təxminən (yaxud ortalama) 30 yaşdır. Üstəlik, qadının yaşı artdıqca hamilə qalma ehtimalı da azalır" [19, s.222]. O, yazır ki, qızların ərə getməzdən öncə öz təhsillərini başa vurmaq istəyi, o cümlədən iqtisadi müstəqilliyə can atmaları nikah yaşının da yüksəlməsinə bilavasitə təsir edir. Belə ki, əgər yarım əsr bundan öncə nikaha daxil olan qızların yarısının yaşı 20 yaşadək olurdusa, indi bu göstərici yalnız 20% təşkil edir. Yaxud əvvəllər nikaha daxil olan 40 yaşlı qadınlar cəmi 2,5% təşkil edirdilərsə, indi bu göstərici 5 dəfə artmışdır [19, s.222]. Ümümiyyətlə, B.Urlanisin elmi yaradıcılığında ailənin istər strukturu, istər say tərkibi, istərsə də sosial mahiyyəti ilk növbədə nümunəvi nizam-intizamı və həyat tərzi ilə seçilən, ənənəvi ailə dəyərlərinə, adət və ənənələrə, mənəvi və əxlaqi normalara sədaqət bəsləyən, dünyaya övlad gətirməklə nəsillər arasında varislik körpüsü yaradan, o cümlədən digər ailələrlə və bütövlükdə cəmiyyətlə sıx, qarşılıqlı münasibətlər sistemi yaradan sosial institut kimi təsvir olunur.

B.Urlanisin elmi yaradıcılığı üçün xarakterik olan cəhətlərdən biri də onun demoqrafik hadisələrin dinamikasını zaman oxu üzərində istər keçmişlə bağlı, istərsə də gələcək inkişaf perspektivi ilə bağlı məsələləri elmi-obyektiv müstəvisində analiz edərək, son dərəcə maraqlı, dəyərli elmi nəticələr çıxara bilməsidir. Təsadüfi deyildir ki, çox vaxt onun demoqrafik proseslərin inkişaf dinamikası ilə bağlı elmi nəticələri elmi proqnoz xarakteri daşıyır. B.Urlanisin elmi əsərlərində nikahdan kənar, vətəndaş nikahı əsasında necə deyərlər, fəaliyyət göstərən ailələr müsbət qarşılanmır. Məsələn, qeyd etmək yerinə düşərdi ki, bir çox dövlətlərdə olduğu kimi, müasir Rusiyada da yalnız vətəndaşlıq qeydiyyatı şöbəsində qeydə alınmış nikahlar rəsmi qaydada dövlət tərəfindən tanınır və qorunur. Artıq ötən əsrin 60-cı illərindən başlayan, hazırda isə müasir rus cəmiyyətində qabarıq şəkildə nəzərə çarpan ənənəvi ideallara, mənəvi və əxlaqi, o cümlədən ailə dəyərlərinə münasibətdə ciddi dəyişikliklərin baş verməsi fonunda müəllifin sözügedən bu kitabında nikaha daxil olan cütlüklərin nikah yaşlarının zaman-zaman artmasına narahatçılıqla yanaşması heç də əsassız deyilmiş. Belə ki, çağdaş Rusiya cəmiyyətində vətəndaş nikahı (Rusiyada vətəndaş nikahı biri-biriləri ilə nikah və valideyn hüquq və vəzifələri ilə bağlı olmaq istəməyən insanların birgə yaşayışıdır. – A.M.) müəyyən legitimlik qazanmışdır. Bu münasibətlər artıq heç kimi təəccübləndirmir və çoxları onun mövcudluğuna normal yanaşaraq, haqq qazandırırlar. Buna görə də çağdaş dövrdə tarixən formalaşaraq, böyük inkişaf, təkamül yolu keçən ənənəvi ailə tədricən əhalinin əhəmiyyətli hissəsi üçün cəlbediciliyini itirir. Təsadüfi deyildir ki, B.Urlanisin sözügedən problemlə bağlı hələ neçə onilliklər bundan qabaq gəldiyi və yuxarıda xatırlatdığımız dəyərli elmi nəticələrlə O.Papanın "Vətəndaş nikahı nikahın alternativi kimi"

[9], A.Antonovun "XXI əsrdə ailə sivilizasiyasının böhranı" [2], N.Bezrukovanın "Uşaqlar və valideynlik dəyərləri" [4], A.Vişnevskinin "Demoqrafik inqilab homo-sapiens növlərinin reproduktiv strategiyasını dəyişir" [29], E. Vovkun "Rusiyada birgə yaşayış təcrübəsi: yayılma, şərhin mənaları" [5], S.Zaxarovun "Reproduktiv yaşda olan qadınların evlilik müddəti", "Evlilik və ailə vəziyyəti" [6; 7] adlı elmi məqalələrində də rastaşırıq. Belə ki, adları çəkilən müəlliflər belə bir qənaətə gəlirlər ki, nikahın alternativ formalarına, yəni vətəndaş nikahı qaydalarına- birgə yaşayışa əsaslanan ailələr təbii ki, ənənəvi ailəyə xas olan vacib funksiyaları tam yerinə yetirə bilmirlər. Çünki yalnız nikah və ailə bir-biri ilə sıx və qarşılıqlı vəhdətdə nəsil artımının fasiləsizliyini təmin edən vahid sistem təşkil edərək, sosial sferanın ən mühüm faktoru, elementləri kimi çıxış edirlər.

Müəllif nikah yaşının doğuma təsiri ilə bağlı tədqiqatları nəticəsində belə qənaətə gəlir: "Nikah yaşının istənilən kəmiyyətdə artımı qadının dünyaya gətirə biləcəyi uşaqların sayının azalması anlamına gəlir" [19, s.224]. O, istənilən halda nikaha daxil olan cütlüklərin yaş həddinin artmasını fertil qabiliyyətin azalması, ənənəvi ailəyə xas olan uşaqların sayının azalması, o cümlədən gələcəkda belə ailələrin uşaqsız qalma riskinin artması təhlükəsi ilə eyniləşdirir. Müəllifin bu məsələyə son dərəcə ehtiyat və həssaslıqla yanaşması, həyəcan təbili çalması, uzaqgörənliyi müasir Rusiya cəmiyyətinin demoqrafik mənzərəsi ilə öz təsdiqini tapır. Belə ki, 1990-cı illərin əvvəllərindən üzü bəri Rusiyada nikahların bağlanması və boşanmalarla bağlı demoqrafik vəziyyət əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Belə ki, nikaha daxil olan bəylərin orta yaş həddi iki ildən çox, (1992-ci ildəki 23,9-dan 2005-ci ildə 26,1-ə), gəlinlərinki isə təxminən iki il (21,7-dən 23,3-ə qədər) artmışdır. Həm kişilər, həm də qadınlar arasında 25 yaşa qədər nikahların ümumi intensivliyi isə 2 dəfəyədək azalmışdır. Belə ki, ölkədə əgər 1989-cu il əhalinin siyahıyaalınmasına əsasən, hər 1000 kişiyə 20-24 yaşlı heç vaxt nikahda olmayan 595 nəfər, hər 1000 qadına isə 335 nəfər düşürdüsə, 2002-ci ilin son siyahıyaalınmasına əsasən, bu rəqəmlər müvafiq olaraq 736 və 526 nəfər olmuşdur. Demoqrafik araşdırmalar sözügedən siyahıyaalmadan sonrakı 5 il ərzində də 25 yaşına qədər heç vaxt evlənməmiş gənclərin nisbətinin sürətlə artdığını üzə çıxarmışdır. Rusiyada nikah nisbətində baş verən bu neqativ hallar, ölkədə əhali artımı və doğumla bağlı ciddi dəyişikliklərə məruz qalan hazırki demoqrafik modellə eyni dərəcədə, demək olar ki, paralel şəkildə yanaşı gedir. Belə bir hal öz növbəsində, uşaqların maraqlarına yönəlmiş məqsədyönlü tədbirlərin görülməsinə dair dövlət siyasətinin həyata keçirilməsi zərurətini diktə edir. Rusiyada 2024-cü ilin "Demoqrafiya ili" kimi qeyd olunması da elə sözügedən problemin dövlət siyasətinin prioritet məsələlərindən biri olduğunu aydın şəkildə göstərir.

B.Urlanisin əmək fəaliyyəti və ailə qayğılarının biri digərinə mane olmadan, bir-birilə rəvan bir şəlkildə uzlazdırıla bilməsi təcrübəsini ən xırda detalları ilə təsvir edən "Qadınları da qorumaq lazımdır" adlı adlı əsərində təkcə qadınların həyat hekayələri, fərdi xüsusiyyətlərə deyil, həm də karyera və ya ailənin xeyrinə strateji prioritetlərin seçilməsi ilə əlaqədar üzləşdikləri problemlər tarixi-demoqrafik aspekdə böyük peşəkarlıqla tədqiq edilmişdir. B.Urlanis sözügedən əsərində qadınların həm əmək fəaliyyəti, həm də məişətdə sağlamlıqlarının qorunmasının bütün cəmiyyət üçün vacıbliyi məsələsini də gündəmə gətirir: "Eyni zamanda, qadınların əməyinin mühafizəsinə də həssaslıqla yanaşmalıyıq. Qadınları kimyəvi istehsal və qazla çirklənmiş sahələrindən, vibrasiyadan, tozdan uzaq tutmalıyıq. Axı, buna məhəl qoymamaq çox vaxt hətta xatırlamaqda belə çətinlik çəkdiyimiz ağır və arzuolunmaz genetik nəticələrə səbəb ola bilər. Unutmaq olmaz ki, qadınlar iş başında anadır, ona görə də onlar üçün xüsusi iş şəraiti lazımdır. Daha sonra müəllif fikrinə davam edərək: "Qadınların əməyini asanlaşdırmaq bizim ən vacib və ümdə vəzifələrimizdən biridir. Biz bunu onların ürəyinə yatan bir şəkildə, zövqlə təşkil etməliyik" – deyə, yazır [16, s.100-106]. Müəllif qadınların ictimai və şəxsi həyatdakı fəaliyyətinə tarixi nəzər salaraq: "İnqilabdan əvvəl Rusiyada qadınlar ya əkinçi, ya aşpaz, ya da dayə kimi çalışırdılar... Əgər indi də qadınları sırf ev təsərrüfatı ilə bağlı qayğılardan ayırıb bu işləri xidmət sferalarına həvalə etsəydik, o zaman bu işləri görmək üçün əlavə 30-40 milyon işçi qüvvəsi tələb olunardı" [16, s.232-241]. Müəllif haqlı olaraq yazır ki, qadınların evdə gördükləri işlərinin iqtisadi səmərəsinin pulla hesabı aparılsaydı, məsələn, onların evdə bişirdikləri naharın haqqından naharda istifadə olunan ərzağın yeməkxana qiymətləri ilə pulu çıxılsaydı onda əmələ gələn fərqin pulla ifadəsi, ekvivalenti görülən zəhmətin böyüklüyünü və milli gəlirə verdiyi töhfənin əhəmiyyətini aşkar surətdə əks etdirərdi. Müəllif həmçinin "qadınların ictimai və şəxsi həyatda

iştirakı, xalq təsərrüfatında, məişətdəki fəaliyyəti, analıq və nikah məsuliyyətini öz çiyinlərində daşımaq kimi dörd fəaliyyət forması, dörd funksiyası vardır" – deyə, yazır [16, s.100-106].

B.Urlanis "Neçə uşağa sahib olmalı?"adlı əsərində yazır ki, ölkəmizin bir sıra regionlarında doğum səviyyəsinin aşağı düşməsinin əsas səbəbi qadınların mənəvi və maddi sahədə fəallığının artmasıdır. Belə ki, müəllifin fikrincə: "Şəhərlərdə uşaq böyüdən qadınlar müxtəlif çətinliklərlə üzləşməli olurlar. Əgər ailədə uşağa qulluq etməyi əmanət edə biləcəyiniz bir nənəniz varsa, bu çox yaxşı bir haldır. Hətta "Nənə doğum amili kimi" mövzusunda xüsusi bir araşdırma apararaq maraqlı tədqiqat əsəri də yazmaq olar. Bəs ailədə nənə yoxdursa, kiçik körpəni də uşaq bağçasına vermək istəmirsinizsə, onda nə etməli? Nənəni haradan, necə əldə etməli?" [24, s.324]. Bu məqaləni oxuyarkən təbii sual yaranır, bəs nə üçün valideynlər öz körpələrini uşaq bağçasına vermək istəmirlər? Müəllifin bu suala cavabı əslində valideyn-cəmiyyət, valideyn-tədris müəssisəsi münasibətlərinə də aydınlıq gətirir. B.Urlanis sözügedən əsərində nuklear ailələrin getdikcə artması fonunda doğumun azalmasının qarşısının alınması üçün çoxuşaqlı ailələrin maddi durumunun yüksəldilməsi, onlara dövlətin xüsusi qayğısının göstərilməsini vacib hesab edir. Ailənin uşaqlara ehtiyacı müasir insan üçün vacib olan maraqları ilə əvəz olunaraq geridönməz şəkildə azalır. Uşaqlar müasir insanlar üçün hətta ailənin narahatçılığına da çevrilirlər [24].

Nəticə. B.Urlanisin tədqiqat əsərlərini tarixşünaslıq konteksində nəzərdən keçirərkən, elmi-obyektiv prizmadan araşdırmağa cəhd edərkən onun nikah münasibətlərinin sabitliyinin qorunub saxlanılması, boşanmaların qarşısının alınması, ailədə konkret tarixi situasiyaya lazım olan optimal sayda uşaqların dünyaya gəlməsi, sağlam ruhda böyüməsi, maddi köməyə ehtiyacı olan ailələrə, analara və uşaqlara təxirəsalınmaz sosial yardımın göstərilməsi, insan ömrünün uzadılması üçün sosial-psixoloji, sosial-iqtisadi amilləri daha çox qabartması, o cümlədən, demoqrafik siyasətin həyata keçirilməsi məsələlərinə ciddi önəm verməsi qənaətinə gəlmiş oluruq. Həmçinin belə bir nəticəyə gəlmiş oluruq ki, həyat yoldaşları arasında müqəddəs ailə dəyərləri üzərində bərqərar olan sabit, səmimi, sağlam və möhkəm ər-arvad, o cümlədən valideyn-övlad münasibətləri ailədə daha çox uşaq dünyaya gətirmək, onları böyüdüb cəmiyyətə inteqrasiya etmək üçün ən mühüm amillərdən biri, yaxud da birincisidir. Həqiqətən də yaxşı ailə, övladlar, ailə üzvlərinin sağlamlığı və rifahı insanların böyük əksəriyyəti üçün xoşbəxtliyin və həyatdan məmnunluğun əsasını təşkil edir. Nikah və ailə institutlarının möhkəmləndirilməsi məqsədilə atılan hər bir addım, hər bir proqram, yaxud layihə, əhalinin təbii artımı ilə bağlı həyata keçirilən ən vacib, təxirəsalınmaz tədbirlərdir.

ƏDƏBİYYAT

1. Məmmədov A. Tarixi demoqrafiya. Bakı, ADMİU, 2019, 230 s.
2. Антонов А. Кризис фамилистической цивилизации в XXI веке// Экономические стратегии. 2016. №1. с. 40-43.
3. Бараненкова Т.А. Б.Ц Урланис выдающийся учёный-демограф к 115 летию со дня рождения. Вестник Института экономики РАН №3. 2021. с.185-193.
4. Безрукова О.Н. Ценности детей и родительства: межпоколенческая динамика // Социологический журнал. 2017. Том 23. №4. с. 88-110.
5. Вовк Е. Практика сожительство в России: распространённость, смыслы интерпретации // Социальная реальности. 2006 №4. с.46-60.
6. Захаров С. В Раздел 2. Брачность и брачное состояние // Население России 2013: двадцать первый ежегодный демографический доклад. М., Изд. дом Высшей школы экономики,2015. с. 52- 80.
7. Захаров С. В. Длительность супружеской жизни женщин репродуктивного возраста. Демоскоп Weekly, 2007, № 289-290.
8. Ильдарханова Ч.И. Актуальные социально-демографические проблемы российских мужчин в контексте их генеративного поведения.// Мужское измерение работы и семьи в современном мире: Государственная политика и практики повседневности. Уфа.Инеш. 196
9. Папа О. Сожительство как альтернатива браку. // Современные исследования социальных проблем (электронный научный журнал), №2. (10), 2012.

10. Рохлин Д. Болезни древних людей Москва, «Наука», 1965. 303 с.
11. Урланис Б.Ц. Безотцовщина / Избранное. Москва, «Мысль», 1985, 226 с.
12. Урланис Б.Ц. Берегите мужчин! /Народонаселение, Исследования, Публицистика. Москва, «Статистика», 1976, 359 с.
13. Урланис Б.Ц. Войны и народонаселение Европы. Москва, «Изд-во социально-экономической литературы» 1960, 567 с.
14. Урланис Б.Ц. Время решать! Народонаселения. Исследования. Публицистика. Москва, «Статистика», 1976, 359 с.
15. Урланис Б.Ц. Желанный ребёнок. / Б.Ц.Урланис. Избранное. Москва: Мысль, 1985, 255 с.
16. Урланис Б.Ц. Женщин также нужно беречь. Кодры, 1978, №7, с.100-106.
17. Урланис Б.Ц. Историческая демография. Избранные труды. Москва, «Наука», 2007, 468 с.
18. Урланис Б.Ц. История одного поколения (социально-демографический очерк). Москва, «Мысль», 1968, 268 с.
19. Урланис Б.Ц. Народонаселения. Исследования. Публицистика. Москва, «Статистика», 1976, 359 с.
20. Урланис Б.Ц. Однобокая арифметика/Народонаселение, Исследования, Публицистика Москва, «Статистика»,1976, 359 с.
21. Урланис Б.Ц. Продолжительность жизни в историческом аспекте. .Эволюция продолжительности жизни. Москва, «Статистика», 1978, 309 с.
22. Урланис Б.Ц. Рост населения в Европе. Москва, «Госполитиздать», 1941, 436 с.
23. Урланис Б.Ц. Рост населения и способ производства/Народонаселение, Исследования, Публицистика. Москва, «Статистика», 1976, 359 с.
24. Урланис Б.Ц. Сколько надо иметь детей? /Народонаселение, Исследования, Публицистика. Москва, «Статистика», 1976, 359 с.
25. Урланис Б.Ц. Ускорение роста населения Земного шара/Народонаселение, Исследования, Публицистика. Москва, «Статистика», 1976, 359 с.
26. Урланис Б.Ц. Эволюция продолжительности жизни. Москва, «Статистика», 1978, 309 с.
27. Урланис Б.Ц. Отец, мать, трое детей/Народонаселение, Исследования, Публицистика. Москва, «Статистика», 1976, 359 с.
28. Урланис Б.Ц. Избранное. Москва, «Мысль», 1985, 255 с.
29. Вишневский А. Демографическая революция меняет репродуктивную стратегию вида homo-sapiens // Демографическое обозрение. 2014. №6. с. 6- 33.

АЙДЫН МАМЕДОВ
Доцент кафедры «Источниковедения, историографии и методики» Бакинского Государственного Университета, доктор философии по истории

ПРОБЛЕМЫ ИСТОРИЧЕСКОЙ ДЕМОГРАФИИ В ИССЛЕДОВАНИЯХ Б.УРЛАНИСА

Борис Цезарович Урланис (1906-1981) – выдающийся российский учёный-демограф, проведший многолетние научные исследования по проблемам исторической демографии, экономической демографии, роста, динамики и структуры населения. В 1923-1926 годах Б.Урланис учился на факультете общественных наук МГУ. Б. Урланис, работавший в Академии наук СССР с 1959 года, был известен своими многочисленными научными статьями, содержащими демографические знания в Советском Союзе в 60-70-е годы, и поднимавшими проблемы, связанные с ростом населения, которых нет один осмелился. Так как, Б. Урланис чутко отнесясь к таким вопросам, как уменьшение числа детей, рожденных во вновь создаваемых семьях, увеличение числа разводов, а также социальной защищенности женщин и малообеспеченных семей в регулировании роста населения смог избавиться от догм советской идеологии, утверждавшей, что в этой области якобы нет недостатков, и не замедлил показать наиболее оптимальные пути преодоления этих проблем: «...К сожалению, не все наши женщины

могут испытывать радость семейной жизни. У нас высок процент разводов: 2 218 000 женщин впервые вышли замуж в 1976 году, но развелись в этом году 861 000 женщин. В то же время мы должны учитывать, что не всем женщинам удалось попробовать начать новую семейную жизнь во второй раз после развода». Или, в статье «Берегите мужчин!» он показал, что уровень смертности среди мужчин в стране, гражданином которой он является, значительно выше, чем среди женщин, и провел интересный анализ в этом отношении. Б. Урланис считают одним из основоположников исторической демографии в СССР.

В статье рассматриваются вопросы исторической демографии в научном творчестве Б.Урлaниса, на основе сравнительного анализа многочисленных научных работ учёного-демографа, исследуются прирост населения, семья, брак и т.д.

Ключевые слова: Борис Урланис, историческая демография, прирост населения, семья, российская историография.

AYDIN MAMMADOV
Associate Professor of the Department of Source Study, Historiography and Methodology of Baku State University, PhD in History

PROBLEMS OF HISTORICAL DEMOGRAPHY IN THE RESEARCH OF B.URLANIS

Boris Sezarovich Urlanis (1906-1981) is an outstanding Russian demographer-scientist who has conducted many years of scientific research on the problems of historical demography, economic demography, population growth, dynamics and structure. In 1923-1926, B.Urlanis studied at the Faculty of Social Sciences of Moscow State University. B.Urlanis, who has been working at the Academy of Sciences of the USSR since 1959, was known for his numerous scientific articles containing demographic information in the Soviet Union in the 60s and 70s, and brought up the problems related to population growth that no one dared to. Thus B.Urlanis, being sensitive to such issues as reducing the number of children born in newly created families, increasing the number of divorces, as well as the social protection of women and low-income families in regulating population growth, was able to get rid of the dogmas of Soviet ideology, which argued that this area supposedly has no shortcomings, and was quick to show the most optimal ways to overcome these problems: "...Unfortunately, not all of our women can experience the joy of family life. We have a high divorce rate: 2,218,000 women were first married in 1976, but 861,000 women divorced this year. At the same time, we must take into account that not all women were able to try to start a new family life for the second time after a divorce". Or, in the article "Protect men!" he showed that the death rate among men in the country of which he is a citizen is significantly higher than that of women and made interesting analyzes in this regard. B. Urlanis is considered one of the founders of historical demography in the USSR.

The article examines the issues of historical demography in B.Urlanis's scientific work, based on the comparative analysis of numerous research works of the demographer-scientist, population growth, family, marriage, etc. such demographic processes are investigated.

Keywords: Boris Urlanis, historical demography, population growth, family, Russian historiography.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 yanvar 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.